# Əziz qadınlar, bayramınız mübarək!

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

№ 10 (1005) 7-14 mart 2018-ci il

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## Prezident seçkiləri xalqın iradəsini əks etdirəcək



Martın 5-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov prezidentliyə namizədlik vəsiqəsini İlham Əliyevə təqdim edib.

Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov 2018-ci il aprelin 11-də Azərbaycanda keçiriləcək prezident seçkiləri ilə bağlı qeydə alınmış ilk namizəd kimi İlham Əliyevə təbriklərini çatdırmış və namizədlik vəsiqəsini ona təqdim etmişdir. Dövlətimizin başçısı qarşıdan gələn prezident seçkilərinin şəffaf, ədalətli, Azərbaycan Respublikasının qanunlarına tam uyğun şəkildə keçiriləcəyinə və bu seçkilərin Azərbaycan xalqının iradəsini əks etdirəcəyinə əminliyini ifadə etmiş, Mərkəzi Seçki Komissiyasının işinə uğurlar arzulamışdır.

Seçkilərə hazırlıq işlərinin lazımi səviyyədə həyata keçirildiyini vurğulayan Məzahir Pənahov seçkilərin Seçki Məcəlləsinin tələblərinə tam uyğun, demokratik və şəffaf şəkildə keçirilməsi üçün bütün şəraitin yaradılması ilə bağlı Azərbaycan Respublikası vətəndaşlarının konstitusion hüquqlarının qarantı kimi Prezident İlham Əliyevə minnətdarlığını bildirmişdir.

## Şağan Mədəniyyət Mərkəzi istifadəyə verildi



Xəzər rayonunun Şağan qəsəbəsində yeni inşa edilən Mədəniyyət Mərkəzinin martın 5-də açılış mərasimi olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva mərasimdə iştirak edib.

Son illərdə dövlət tərəfindən mədəniyyət sahəsinə göstərilən diqqət və qayğı mövcud mədəniyyət obyektlərinin tamamilə yenidən qurulmasında, həmçinin yeni müasir mədəniyyət ocaqlarının yaradılmasında özünü aydın göstərir. Xəzər rayonunun Şağan qəsəbəsində yeni tikilən Mədəniyyət Mərkəzi də bu istiqamətdə görülən işlərdən biridir.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat vermişdir ki, iki mərtəbədən ibarət Mədəniyyət Mərkəzinin binasının inşasına 2014-cü ildə başlanılıb. Ən yüksək səviyyədə aparılan tikinti işləri nəticəsində Mərkəzdə 200 yerlik tamaşa zalı, kinozal, kinoproyeksiya, qrim otağı, rəssam emalatxanası, musiqi dərnəyi, oxu zalı, kitab fondu, tətbiqi incəsənət, ədəbiyyat, evdarlıq dərnəkləri, rəqs zalı, 41 yerlik amfiteatr, işıq aparatları yaradılıb. Son illərdə ölkədə mədəniyyətin inkişafı ilə bağlı həyata keçirilən layihələrin bariz nümunəsinə çevrilən bu mədəniyyət ocağının yeni binası, ilk növbədə, zəngin Azərbaycan incəsənətinin, bütövlükdə mədəniyyətinin gənc nəsil arasında təbliği işinə xidmət edir. Müasir üslubda inşa edilən binalar həm də yerləşdikləri ərazinin gözəlliyini artırır. Bütün bunlar sübut edir ki, mədəniyyətimizin, incəsənətimizin, musiqimizin tarixi ənənələrini qorumaq və inkişaf etdirmək, gələcək nəsillərə çatdırmaq bu gün Azərbaycanda həyata keçirilən dövlət siyasətində də əksini tapıb.




## Gələcəyin peşəkar zabitləri üçün yeni tədris korpusu açıldı



Martın 5-də Bakının Xəzər rayonunun Mərdəkan qəsəbəsində Dövlət Sərhəd Xidmətinin (DSX) Xüsusi Məktəbinin yeni tədris korpusunun açılışı olub. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva açılış mərasimində iştirak edib.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya məruzə etmişdir.

Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin yaradılmasında və formalaşdırılmasında Heydər Əliyev Fondunun mühüm dəstəyi var. Dövlət Sərhəd Xidmətinin tabeliyinə verilənədək oğlanlar üçün açıq tipli xüsusi məktəb kimi fəaliyyət göstərən bu tədris ocağı Fondun təşəbbüsü ilə əsaslı təmir edilərək, zəruri tədris bazası ilə təchiz olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva 2011-ci ildə DSX-nin Xüsusi Məktəbinin açılış mərasimində iştirak edib.

Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinin fəaliyyətə başlaması ilə Azərbaycan Respublikasının sərhəd təhlükəsizliyini təmin edəcək ixtisaslı zabit kadrların hazırlanması üçün 12 illik təhsil dövrünü əhatə edən mükəmməl hərbi tədris sistemi formalaşıb. Xüsusi Məktəb bu sistemin müstəsna əhəmiyyətli ilkin səviyyəsini təşkil edir. Yeni korpus istifadəyə verildikdən sonra burada təhsil alacaq kursantların sayının gələcəkdə 700 nəfərə çatdırılması mümkün olacaq.

Birinci vitse-prezident kursantlara dərslərində uğurlar, Vətənə layiqli övlad olmaları və gələcəyin peşəkar zabiti kimi yetişmələrini arzulamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü ildə imzaladığı Fərmana əsasən, Dövlət Sərhəd Xidmətinin Xüsusi Məktəbinə xüsusi təyinatlı təhsil müəssisəsi statusu verilib. 2015-ci ildən məzunları DSX-nin Akademiyasında təhsil alan məktəbin Nizamnaməsinə əsasən kursantların maraq və potensial imkanları, fərdi xüsusiyyətləri nəzərə alınmaqla, onların zəruri biliklərə və həyat bacarıqlarına yiyələnmələri, milli mənəvi dəyərlərə malik, sağlam, vətənpərvər, müasir dünyagörüşlü şəxsiyyət kimi formalaşmaları onları Dövlət Sərhəd Xidmətinin Akademiyası üçün hazırlayır.

# Azərbaycan dünya bazarlarına enerji ehtiyatlarının etibarlı, uzunmüddətli təchizatçısı olacaq

li maraqların toqquşması prosesi baş verir. Amma Avropa Komissiyasının, Böyük Britaniya Krallığının, Amerika Birləşmiş Ştatlarının bu məsələyə bilavasitə dəstəyi və Azərbaycan dövlətinin əməkdaşlığının dərinləşməsi istiqamətində atdığı addımlar artıq öz bəhrəsini verir və mən Avropa Komissiyasının Enerji məsələləri üzrə vitse-prezidentinin çıxışını dinlədim, o, Azərbaycan dövlətinə çox səmimi təşəkkürünü bildirirdi.

İndi Azərbaycan qaz ixracında yeni bir mərhələyə qədəm qoyub. Ümumiyyətlə, Azərbaycanda qaz istehsalının da çox zəngin tarixi var. Bir çox texnologiyalar üzrə Azərbaycan da qaz istehsalında irəlidə olan ölkələr sırasında olub. Amma biz artıq nəinki qaz istehsal edən, eyni zamanda, dövlət başçısının dediyi kimi, qaz ixrac edən ölkəyə çevrilmişik.

Azərbaycan bu gün Avropanın qlobal enerji təhlükəsizliyinin təminatçı ölkələrindən birinə çevrilir. Əgər qlobal enerji təhlükəsizliyi varsa, bu, çox ciddi məsələdir və onun təminatçı ölkələrindən biri Azərbaycandır. Çəkilən alternativ qaz marşrutları, "Şahdəniz" yatağı, Şimal-Cənub Dəhlizi Azərbaycanın qaz ixrac potensialını xeyli genişləndirəcəkdir.

Dövlət başçısının çıxışında çox maraqlı məsələlər var. Bu dəhlizin uğurla həyata keçirilməsi həmin ölkələrin investisiya imkanlarını genişləndirəcək, həmin ölkələrin nəqliyyat potensialını artıracaq, həmin ölkələrdə qazlaşma səviyyəsini yüksəldəcək, minlərlə yeni iş yerləri yaradılacaq. Nəyin hesabına? İlk növbədə, Azərbaycan kimi müstəqil bir dövlətin bu layihənin təşəbbüskarı olmasına görə. Maraqlı və vacib məqamlardan biri də odur ki, Avropa Komissiyasının vitse-prezidenti konkret faktlarla göstərirdi ki, biz nə işlər görəcəyik, ikitərəfli sazişlər aparacağıq, sonra qaz qurğuları ilə bu dövlətləri bir-birinə birləşdirəcəyik və bütövlükdə, Avropanın enerji təhlükəsizliyini təmin edəcəyik. Ona görə mən belə hesab edirəm ki, bu növbəti iclas, onun qəbul etdiyi bəyanat, üzv ölkələrin üzərinə götürdükləri öhdəliklərin həyata keçirilməsi, nəinki Azərbaycanın, bütövlükdə Avropanın ictimai, iqtisadi-siyasi həyatında mühüm bir hadisə olacaqdır. Onun nəticələri Azərbaycan üçün də çox uğurlu olacaqdır. Artıq bizim ölkəmiz 95 faiz qazlaşmanı başa çatdırıb. Bakı-Tbilisi-Qars dəmir yolunun inkişafı, bu ölkələrin həmin layihədə iştirakı tam əminliklə deməyə əsas verir ki, Azərbaycanın uğurlu enerji siyasəti qlobal əhəmiyyət kəsb edir. Ölkənin milli, enerji, iqtisadi, ekoloji, demoqrafik və sosial təhlükəsizliyi - hamısı bir-biri ilə əlaqədardır.

Bəxtiyar müəllim çox tutarlı bir faktı qeyd etdi: 125 milyard mənfəət, bu, çox mühüm nəticə, böyük siyasətin uğurlarından biridir. Əgər bu kimi layihələrin icrası olmasa idi, biz bugünkü nailiyyətlərdən danışa bilməzdik. Ona görə ki, Azərbaycanın iqtisadi müstəqilliyinin qorunmasında "Əsrin müqaviləsi", "Əsrin müqaviləsi"ndən sonra həyata keçirilən tədbirlər, Azərbaycan dövlətinin uğurla həyata keçirdiyi enerji siyasəti bu siyasətin bundan sonra da uğurla inkişafına əminlik yaradır.

**Aparıcı:** Ziyad müəllim, çox maraqlı təhlilinizə görə təşəkkür edirəm. Elçin müəllim, ən vacib məqamlardan biri də cənab prezidentin çıxışında Cənub Qaz Dəhlizinin enerji təhlükəsizliyi layihəsi olması idi və milli təhlükəsizliyimizdən danışarkən, əlbəttə ki, enerji təhlükəsizliyi ən vacib elementlərdən biridir. Sözsüz ki, Xəzər regionunda Azərbaycanın cəsarətli addımları bu gün bütün region ölkələri üçün, Xəzəryanı dövlətlər üçün çox mühüm əhəmiyyət kəsb edən bir məsələdir və



cənab prezident, eyni zamanda, konkret faktlar gətirdi, bildirdi ki, Azərbaycan rəqabət qabiliyyətinə görə, Davos İqtisadi Forumu tərəfindən 35-ci yerə layiq görülüb. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrin aktivliyinə görə, 3-cü yerdədir. Mən istərdim ki, bu vacib məqamlara öz münasibətinizi bildirəsiniz.

**Elçin Əhmədov:** Bəxtiyar müəllimin də qeyd etdiyi kimi, 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin tarixinin 2050-ci ilə qədər uzadılması, həmin neft yataqlarından 500 milyon ton neft çıxarılması proqnozlaşdırıldığı halda, hazırda 1 milyard ton kimi qiymətləndirilməsi məslələrinə toxunmaq istəyirəm. Bu, Azərbaycanın, ilk növbədə enerji ehtiyatlarının, Xəzərin enerji ehtiyatlarının şaxələndirilməsi siyasətinin düzgün istiqamətdə getdiyini göstərir və xüsusilə də cənab prezidentin qeyd etdiyi kimi, bizim milli təhlükəsizliyimiz əsas məsələdir və milli təhlükəsizliyin də tərkib hissəsi enerji təhlükəsizliyidir. Enerji təhlükəsizliyi təkcə Azərbaycan üçün yox, eləcə də Avropa üçün çox mühüm əhəmiyyət kəsb edir. Avropanın bəzi ölkələrində Azərbaycan qazı 40 faizlik paya malikdir, eyni zamanda, onu qeyd etmək vacibdir ki, Avropa ölkələri ilə Azərbaycan artıq strateji tərəfdaşlıq haqqında müqavilə imzalamışlar. Bütün bunlar Azərbaycanın yeritdiyi şaxələndirilmiş enerji siyasətinin nəticəsidir. Məşvərət məclislərinin toplantılarının keçirilməsi də görülmüş işlərə yekun vurmaqla yanaşı, Azərbaycanın yeritdiyi siyasəti də qiymətləndirir. Cənab prezidentə Davosda verilən "Siz Avrasiya qitəsində çox çətin və mürəkkəb geosiyasi şəraitdə necə davranacaqsınız?" sualına da o, belə cavab verdi: ***"Biz qonşularımızla münasibətlərə xüsusi əhəmiyyət veririk. Çünki hər bir dövlətin qonşularla münasibətləri prioritet təşkil edir və biz qonşuluqda olan üç əsas dövlət, yəni İran, Türkiyə və Rusiya ilə strateji tərəfdaşıq. Bu, bizim üçün müsbət bir haldır. Çünki həmin böyük dövlətlərin qonşu olması böyük bazar deməkdir".*** Amma, eyni zamanda, cənab prezident bildirdi ki, bəzi qonşularla münasibətlər Azərbaycana problem yarada bilər və dərhal Ermənistanın adını çəkdi. Bu məqam Azərbaycanın milli maraqlara söykənən siyasətinin bariz nümunəsi kimi qiymətləndirilməlidir.

**Aparıcı:** Bəxtiyar müəllim, bayaq siz, xüsusilə də, rəqəmlərə müraciət etdiniz. Azərbaycanın yeni qaz yataqları və bu qaz yataqlarının işlənməsi ilə bağlı mühüm məqamlar var. Mən istərdim ki, bu məsələyə də öz münasibətinizi bildirəsiniz.

**Bəxtiyar Aslanbəyli:** - Biz bu günə qədər BP-nin əməliyyatçısı olduğu layihələr üzrə rəqəmləri bir daha təkrarlasaq, ümumi qoyulan kapital, investisiya 69 milyard dollardan bir qədər yuxarıdır. Bu il daha bir yubiley hasilat rəqəminin şahidi ola bilərik - "Şahdəniz" yatağından 100 milyardıncı kubmetr qazın hasilatı. Son 20-25 il ərzində Azərbaycanın enerji siyasəti kifayət qədər uğurlu olub. Gələcəyə baxdıqda isə bu uğurun hələ uzun müddət davam edəcəyinin şahidi oluruq. Təkcə Azəri-Çıraq-Günəşli layihəsinin müddəti 2050, "Şahdəniz" isə 2048-ci ilə qədərdir. Bundan əlavə, ölkədə BP-nin əməliyyatçısı olduğu və olmadığı digər belə layihələr vardır. Məsələn, qaz yataqları ilə bağlı cənab prezident Məşvərət Şurasının iclasında da qeyd etdi ki, Abşeron yatağından qazma işlərinin bu il başlanması artıq nəzərdə tutulub. Ümid-Babək yatağı var ki, o da hal-hazırda Dövlət Neft Şirkəti tərəfindən işlədilir və onun gələcək perspektivləri müzakirə olunur.

"Qarabağ", "Dan ulduzu Əşrəfi", "Şəfəq Asiman" yataqları üzrə digər xarici neft və enerji şirkətləri ilə danışıqlar aparılır. Cənub-Qafqaz boru kəmərində, TANAP, eləcə də TAP boru kəmərlərində hazırkı ötürmə qabiliyyəti ilə yanaşı, mühəndislik elə təşkil olunub ki, əgər əlavə qaz ehtiyatları olarsa, onların ötürmə qabiliyyətləri artırıla bilər. Digər mənbələr olmasa belə, gələcəkdə hasilatımız artdığı zaman bu məsələlər də öz müsbət həllini tapacaqdır. Bu, həm Avropa ölkələri, həm də Avropadakı istehlakçılar üçün mənbələrin diversifikasiyasıdır, yəni yeni mənbədən yeni və əhəmiyyətli qaz həcmləri Avropa bazarına daxil olur. Biz artıq bir bazardan asılı olmuruq, fərqli bazarlara fərqli məhsullar çıxartma imkanına malik oluruq.

Daha bir potensial, müvəffəqiyyətli bir layihə isə Abşeron yarımadasının Dayazsulu hissəsi ilə bağlıdır. O saziş üzrə 2016-cı ildə seysmik tədqiqatlardakı araşdırmalar bitib. Bu il ərzində orada əməliyyat planı hazırlanacaq, çox güman ki, gələn ilin əvvəllərinə orada da qazma işlərinə başlanılacaq. Bu layihə xüsusi əhəmiyyətlidir, çünki burada artıq qaz yataqlarıdır, həmçinin dayaz sulu hissədədir. Kapital xərcləri azdır və investorlar üçün mənfəət dərəcəsi burada nisbətən daha yüksəkdir. Gələcəkdə böyük layihələr var və onların da uğurla davam etdirilməsi üçün yeni əməliyyatçı şirkətlərlə qarşılıqlı inam, qarşılıqlı etibar əsnasında əməkdaşlığın davam etdirilməsi çox vacibdir.

Ümumiyyətlə, sərmayəçilərin Azərbaycana gələrkən ən çox dəyər verdiyi məsələlərdən biri də bu vaxta qədər ölkəmizin imzaladığı hasilatın pay bölgüsü sazişləri, neft sazişləri şərtlərinin dəyişməsinə cəhd edilməməsidir. Bir çox resurs ölkələrində ilkin mərhələdə sazişlərdə müəyyən güzəştlər olur, bir müddət sonra investisiyalar cəlb olunduqdan sonra şərtləri kəskinləşdirməyə çalışırlar. Azərbaycanın timsalında bu, baş verməyib. Bizim etibarlı partnyor imicimiz mövcuddur.

**Aparıcı:** Bəxtiyar müəllim, siz tamamilə düzgün qeyd etdiniz ki, son on beş ildə məhz Cənub Qaz Dəhlizi layihəsi nəticəsində bizim iqtisadiyyatımız üç dəfədən çox, ümumi daxili məhsul isə 3,2 dəfədən çox artmışdır. Bunu Prezident İlham Əliyev öz çıxışında qeyd etdi və eyni zamanda, bildirdi ki, yanvarda sənayemizin qeyri-neft sektorunda iqtisadi artım 8,7 faiz olub. Bütövlükdə, Avropanın təhlükəsizlik məsələlərində enerji amili mühüm məsələlərdən biridir. Biz həftə ərzində ölkəmizə qarşı növbəti qarayaxma kampaniyasının, dövlətimizin uğurlarını gözü götürməyən, buna sevinməyən müəyyən dairələrin, xüsusilə də ermənipərəst dairələrin, ölkəmizə qarşı müəyyən aksiyalarının və çıxışlarının şahidi olduq. Prezident İlham Əliyevin "Azərbaycan öz tarixi torpaqlarını heç zaman unutmur və öz tarixi torpaqlarına da ölkəmiz mühüm əhəmiyyət verir" fikirləri, İrəvanın, Zəngəzurun, Göyçənin adının çəkilməsi müəyyən dairələri, xüsusilə də, erməniləri narahat etməyə başladı və erməni mətbuatı bilavasitə bu məsələyə xüsusi önəm verərək, onu gündəmə gətirdi. Bu, bir daha dövlətimizin bu məsələdə çox prinsipial mövqeyini göstərdi. Mən istərdim ki, Ziyad müəllim, bu məsələyə münasibət bildirəsiniz.

**Ziyad Səmədzadə:** Bəxtiyar müəllim çox dəyərli faktlar açıqladı, bir iqtisadçı kimi, bu rəqəmləri eşidəndə çox sevinirsən. Dövlət başçısının Azərbaycanın iqtisadi inkişafı ilə əlaqədar qəbul etdiyi proqramlarla tanış olduqda, qürur hissi keçirirsən ki, Azərbaycan müstəqil, xüsusilə neft və qazla zəngin olan dövlət kimi, ölkə iqtisadiyyatının proqnozunu ən azı 2050-ci ilə qədər müəyyənləşdirmək imkanlarına malikdir. Bu, çox böyük xoşbəxtlikdir.

Dünyada çox azsaylı ölkələr var ki, qloballaşan dünyada, risklərin artdığı bir şəraitdə beş ilə, on ilə özünün inkişaf istiqamətlərini müəyyənləşdirir.

Heydər Əliyev "Əsrin müqaviləsi"ni imzalayanda, Azərbaycan iqtisadi böhran içərisində idi. Yoxsulluğun səviyyəsi 55-60 faiz idi, işsizlik baş alıb gedirdi. Bu gün bütün bu göstəricilərə görə artıq Azərbaycan dünya ölkələri içərisində ən qabaqcıl yerlərdən birini tutur, rəqabət qabiliyyətinə görə isə 35-ci yerdəyik.

Nəyin hesabına? Düşünülmüş və milli maraqlara cavab verən uğurlu iqtisadi siyasət nəticəsində.

Azərbaycan bu gün nadir ölkələrdən biridir ki, özünün ərzaq təhlükəsizliyini təmin etmək üçün kənd təsərrüfatına dövlət dəstəyi verir, subsidiyalar ayırır, güzəştli kreditlər verir, kəndlilər torpaq vergisindən başqa bütün vergilərdən azaddır və bu siyasət uzun illər davam edəcəkdir. Nə üçün? Ona görə ki, Azərbaycan kəndi güclənsin, sürətlə inkişaf etsin, ölkəsini ərzaq təhlükəsizliyi ilə təmin etsin və əhalimizin rifah halı yaxşılaşsın. Azərbaycanın düşünülmüş sənaye siyasəti var, qeyri-neft sənaye sahəsində artım 8 faiz olub. Azərbaycan dövlətinin yaratdığı texnoparklar, sənaye məhəllələri, güzəştlər, dövlət dəstəyi - bütün bunlar hamısı Azərbaycan dövlətinin, hesab edirəm ki, çox böyük nailiyyətidir.

Bizi istəməyən qüvvələrin fikirlərinin heç bir məntiqi əsası yoxdur, çünki bəziləri professionallıqdan uzaq, iqtisadiyyatı bilməyən, siyasətin qanunlarını dərk etməyən insanlardır, onlara da biz ancaq öz fəaliyyətimizlə, cəmiyyətdə formalaşan, gündən-günə möhkəmlənən birliyimizlə cavab verməliyik.

**Aparıcı:** Azərbaycanın tarixi torpaqları haqda cənab Prezident İlham Əliyev çıxış etdikdən sonra ölkəmizə qarşı yenidən qarayaxma kampaniyası başladı və erməni mətbuatı xüsusilə fəallaşdı. Elçin müəllim, istərdim bunun siyasi tərəfləri haqqında danışasınız.

**Elçin Əhmədov:** Bəli, təbii ki, bu Ziyad müəllimin də dediyi kimi, dinamik inkişaf göstəricisi ilə bağlıdır. Yəni, Ermənistanla heç bir vaxt Azərbaycan müqayisə oluna bilməz. Heç şübhəsiz ki, cənab prezidentin Yeni Azərbaycan Partiyasının VI qurultayında etdiyi bu çıxış, həm tarixə, həm hüquqa, həm də ədalətə əsaslanır.

Fevral ayının 8-də ilk Azərbaycan-İran dəmiryolu işə düşüb, ilk sınaq qatarı 6 vaqondan ibarət idi, mart ayında isə bu dəmiryolunun açılışı gözlənilir, Azərbaycan-İran rəsmiləri də burada iştirak edəcəklər. Ermənistan isə bütün bu adını çəkdiyimiz layihələrdən kənarda qalır. Əslində, bu siyasətin adı elə özü-özünü təcrid etmə siyasətidir. Amma Azərbaycan da bu təcrid siyasətini ona görə qoruyub saxlayır ki, işğal faktı ortadan qalxmayıbdır. Azərbaycan Dünya İqtisadi Forumunun hesabatında artıq 40-cı yerdən 35-ci yerə qalxıb. Qısa müddətdə biz artıq MDB məkanında birinci yerdəyik. Gənc, müstəqil dövlət üçün 35 və 33-cü pillələr çox mühüm göstərici kimi qiymətləndirilməlidir.

Ermənistanın yeritdiyi işğalçılıq siyasəti nəticəsində erməni mətbuatının özü qeyd edir ki, Ermənistan artıq alçaldıcı alt dövlət statusundadır. Yəni, öz subyektivliyini itirir, artıq biz Ermənistanla Azərbaycanı müqayisə etmirik. Çünki həm iqtisadi göstəricilər, həm hərbi potensial baxımından müqayisə yersizdir. Bu baxımdan mütəmadi olaraq bu cür çıxışlar onlarda qıcıq yaradır. Azərbaycanın çox çətin və mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət yeritməsini tarazlı siyasət kimi qiymətləndirirlər. Cənab prezident qeyd edir ki, bunu bu cür adlandırmaq olar, amma bunun əsl adı milli maraqlara söykənən siyasətdir. Bütün bunlara görə biz heç vaxt Ermənistanla müqayisə oluna bilmərik və bu cür kampaniyalar vaxtaşırı olub, olacaqdır da, biz də buna hazır olmalıyıq. Çünki Azərbaycan onsuz da dinamik şəkildə inkişaf edir. Ermənistan Milli Statistika Komitəsinin məlumatına görə, 2017-ci ildə 13 min nəfər erməni öz evini atıb, Ermənistandan getmişdir və siz özünüz öz evinizdən çıxıb gedirsiniz, yəni biz, tarixi torpaqlarımıza ancaq qayıtmaq istəyirik.



**Aparıcı:** Tam haqlısınız, Elçin müəllim. Bu, müəyyən dairələrdə ona görə qısqanclıq yaradır ki, Azərbaycan indi heç bir ölkədən asılı vəziyyətdə deyil, Azərbaycan tam sərbəst, müstəqil daxili, xarici siyasət aparır. Elçin müəllimin fikirlərinin davamı olaraq bildirmək istəyirəm ki, cənab prezidentin "azərbaycanlılar öz tarixi torpaqlarına qayıdacaqlar" fikri tam beynəlxalq, hüquqa uyğun bir açıqlama idi, çünki azərbaycanlıların xeyli hissəsi oradan bura köç ediblər, qaçqın, köçkün düşüblər, niyə də azərbaycanlılar öz tarixi torpaqlarına qayıtmasınlar?!

**Bəxtiyar Aslanbəyli:** - Onu da qeyd edim ki, Cənub Qaz Dəhlizi və "Şahdəniz-2" layihəsi sənaye tarixində ən böyük layihələrdir. Belə böyük, genişmiqyaslı layihələr həyata keçirilərkən, təbii ki, Azərbaycanın uğurlarını görmək istəməyən dairələrdə müəyyən qədər tənqidi fikirlər də olacaq. Amma vacib olan odur ki, bu gün bütün aparıcı dövlətlər bu layihəni dəstəkləyir.

Bu gün Bakıda keçirilən Məşvərət Şurasının tərkibinə baxaq. Nəinki boru kəmərinin keçdiyi ölkələr, eyni zamanda, potensial olaraq Cənub Qaz Dəhlizi vasitəsilə qaz alınmasında marağı ola biləcək ölkələrin belə nümayəndələri yüksək səviyyədə təmsil olunur. Dörd ildir, dörd dəfədir ki, davamlı olaraq Böyük Britaniya Krallığının, Amerika Birləşmiş Ştatlarının yüksək siyasi nümayəndələri tədbirə qatılır və layihəyə dəstəyini bildirirlər. Qonşu ölkələrlə yanaşı, tranzit ölkələrinin yüksək səviyyəli nümayəndələri tədbirə qatılırlar. Hər yerdə bu layihə, eyni zamanda, bizim energetika layihələrimiz, neft-qaz layihələrimizlə bağlı davamlı dəstək var və davamlı dəstəyin əsas səbəblərindən biri də mənbələrin diversifikasiyası və eyni zamanda, Azərbaycanın bu layihələrin həyata keçirilməsində üzərinə götürdüyü böyük məsuliyyətin dərk edilməsidir.

Bu gün "Şahdəniz-2" və Cənub Qaz Dəhlizi layihəsinin toplam investisiya tələbatı 40 milyard dollardır, ilkin olaraq isə 45 milyard nəzərdə tutulurdu. Oturub statistik rəqəmlərə baxsaq, görərik ki, 40 milyard dolların əhəmiyyətli hissəsi Azərbaycan sərmayəsidir. Dövlət Neft Şirkətinin payı etibarilə, o xərclərin geri qaytarılma mexanizmi vasitəsilə əhəmiyyətli hissəsi Azərbaycan investisiyasıdır. Bəli, bu, bizim milli maraqlarımız çərçivəsindədir, çünki enerji resurslarımızın dünya bazarına çatdırılması üçün müəyyən nəqletmə koridorlarının, nəqliyyat dəhlizlərinin yaradılması bizim marağımızdadır. Eyni zamanda, bizim marağımızın olması ilə yanaşı, istehlakçıların marağındadır. Dördüncü bir mənbənin gəlməsi, Xəzər hövsəzinin enerji potensialının Avropa bazarına çatdırılmasına şərait yaradan yeni bir infrastrukturun mövcudluğu isə artıq böyük bir hadisədir. Sadəcə iqtisadi hadisə deyil, eyni zamanda, siyasi hadisədir. Bu siyasi hadisənin əhəmiyyətində, bu yeni enerji infrastrukturunun inşasında və onun reallaşmasında Azərbaycanın rolu isə bütün aparıcı dövlətlər tərəfindən görünür, qəbul olunur və dəstəklənir.

**Ziyad Səmədzadə:** 2018-ci il "Cümhuriyyət ili"dir, Xalq Cümhuriyyətinin 100 illiyidir. 100 il bundan qabaq Xalq Cümhuriyyəti yarandı, lakin az fəaliyyət göstərdi. Biz bu 100 ili qiymətləndirsək, ən məhsuldar il 2018-ci ildir. Bu illər ərzində Azərbaycan dünyanın ən irimiqyaslı layihələrində iştirak edib.

Dövlət başçısı da qeyd etdi ki, dünyanın neft və qaz siyasətində Azərbaycanın öz payı var. Həmçinin, iki qitəni birləşdirən Bakı-Tbilisi-Qars "bir kəmər, bir yol" layihəsində də Azərbaycanın öz payı var. Bütün bunlar Azərbaycan dövlətinin apardığı uğurlu siyasətin məntiqi nəticəsidir, Azərbaycan xalqının, Azərbaycan dövlətinin daha yaxşı yaşaması, siyasi-iqtisadi gücünün artması üçündür.

Uzağa getməyək. Keçdiyimiz illəri müqayisə edək. İldən-ilə Azərbaycanın çiçəklənməsinin şahidi olduq. Azərbaycanın regionlarında inkişaf var, Azərbaycanın sosial bazası möhkəmlənir. Bütün bunlar düşünülmüş iqtisadi siyasətin nəticəsidir. Ulu Tanrıdan ancaq bu dövlətə "Allah qorusun" demək olar.

Bu dövlətin qorunması üçün hər birimiz çalışmalıyıq, ölkəmizdə sabitliyi qoruyub saxlamalıyıq. Bəxtiyar müəllimin də dediyi kimi, bizdən də çox neft çıxaran ölkələrin bir-ikisini çıxmaq şərti ilə, heç biri bu qədər irimiqyaslı layihələrdə iştirak etməyiblər. Ona görə bir daha deyirəm, Azərbaycan dövlətini qorumaq hər birimizin şərəfli, müqəddəs vəzifəsidir.

**Aparıcı:** Hörmətli akademikimiz Ziyad müəllim, Elçin müəllim və eyni zamanda, Bəxtiyar müəllim, maraqlı müzakirədə iştirakınıza görə hər birinizə dərin təşəkkürümü bildirirəm.



# Beynəlxalq Enerji Agentliyi: Qlobal neft tələbatı artacaq

Qlobal neft tələbatının 2018-2023-cü illərdə gündəlik 6,9 milyon barrel artaraq 104,7 milyon barrelə çatacağı gözlənilir.

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) 5 illik bazar analizini əhatə edən "Neft 2018 Hesabatı"nda deyilir.

Hesabata görə, ABŞ, Braziliya, Kanada və Norveçdə neft hasilatı artmağa davam edəcək. Bu dövrdə qlobal neft tədarükündəki artımın 60 faizi ABŞ-ın payına düşəcək. Qlobal neft tələbatı 2018-2023-cü illəri əhatə edən dövrdə gündəlik 6,9 milyon barrelədək artaraq 104,7 milyon barrelə çatacaq. Qlobal neft tələbatındakı çoxalmaya Asiyada iqtisadi artım və ABŞ-ın neft-kimya sənayesi təsiredici olacaq. Bu dövrdə qlobal neft istehsalının həcmi isə gündəlik 6,4 milyon barrel artaraq 107 milyon barrelə çatacaq. Bununla yanaşı, Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) üzrə xam neft hasilatı 2023-cü ilə qədər gündəlik 750 min barrel artacaq. Hesabatı şərh edən IEA-nın icra direktoru Fatih Birol deyib: "Neft yataqlarına qoyulan investisiyaların az olması qlobal bazarda narahatlıq yaradır. Səmərəsi azalan neft yataqlarının inkişafı üçün daha çox investisiya qoymaq lazımdır. Qlobal mənada gündəlik 3 milyon barrel neft itkisinin qarşısını almaq üçün bu investisiyalar mütləq edilməlidir. Bu göstərici Şimal dənizindən çıxarılan həcmə bərabərdir".

# Xəzər Boru Kəməri Konsorsiumunun neft ixracı artıb

Caspian Pipeline Consortium

Xəzər Boru Kəməri Konsorsiumu (The Caspian Pipeline Consortium (CPC) bu il neft ixracını artırıb.

Bu barədə CPC məlumat yayıb. Bildirilir ki, 2018-ci ilin yanvar-fevral aylarında Xəzər Boru Kəməri Konsorsiumu 9,441 milyon ton neft ixrac edib ki, bu da 2017-ci ilin eyni dövründəkindən 16,78 faiz çoxdur. 2018-ci ilin fevral ayında CPC-nin neft ixracı keçən ilin müvafiq dövründəki 3,905 milyon tonla müqayisədə artaraq 4,592 milyon ton təşkil edib.

CPC boru kəməri sistemi MDB-nin enerji sektorunda xarici kapitala malik ən böyük investisiya layihələrindən biridir. Qərbi Qazaxıstanda neft yataqlarını Novorossiysk limanı ilə birləşdirən boru kəmərinin uzunluğu 1511 kilometrdir. CPC-nin Dəniz Terminalı vahid mərkəzdən idarəetmə ilə təchiz olunub ki, bu da tankerlərə təhlükəsiz yükləməyə imkan verir.

2017-ci ildə CPC 55,107 milyon ton neft ixrac edib ki, bu da 2016-cı ilin göstəricisindən 24,4 faiz çoxdur. CPC-nin səhmdarları belədir: Rusiya Federasiyası - 31 faiz ("Transneft" 24 faiz, "CPC Company" 7 faiz), Qazaxıstan Respublikası - 20,75 faiz ("KazMunaiGas" 19 faiz, "Kazakhstan Pipeline Ventures LLC" 1,75 faiz), "Chevron Caspian Pipeline Consortium Company" - 15 faiz, "LUKARCO B.V." - 12,5 faiz, "Mobil Caspian Pipeline Company" - 7,5 faiz, "Rosneft-Shell Caspian Ventures Limited" - 7,5 faiz, "BG Overseas Holding Limited" - 2 faiz, "Eni International N.A. N.V." - 2 faiz və "Oryx Caspian Pipeline LLC" - 1,75 faiz.

# Şist nefti istehsalı 2023-cü ildə gündəlik 17 milyon barrelə çatacaq

Bu barədə Beynəlxalq Enerji Agentliyinin (IEA) 5 illik bazar analizini əhatə edən "Neft 2018 Hesabatı"nda deyilir.

Hesabata görə, qlobal neft tələbatının artmasına başda ABŞ olmaqla şist nefti öz təsirini göstərəcək. 2017-ci ildə gündəlik 13,2 milyon barrel olan şist nefti istehsalının 2023-cü ildə sutkalıq 17 milyon barrelə çatacağı təxmin edilir.

"Venesuelanın neft istehsalı son 20 ildə yarı-yarıya azalıb və bu enişin davam etməsi gözlənilir. Bu istehsal itkisinin İraq tərəfindən kompensasiya ediləcəyi nəzərdə tutulur", - deyə hesabatda bildirilir.

Qeyd edilir ki, Neft İxrac edən Ölkələr Təşkilatı (OPEC) üzrə neft hasilatının azaldılmasına paralel olaraq 2020-ci ilə qədər qlobal neft tələbatındakı böyümənin 80 faizi təkcə ABŞ tərəfindən qarşılanacaq. Qalan hissənin isə Braziliya, Kanada, Norveç və digər IEA-ya üzv ölkələr tərəfindən qarşılanacağı gözlənilir.



Hesabatı şərh edən IEA-nın icra direktoru Fatih Birol deyib: "ABŞ qarşıdakı 5 ildə qlobal neft bazarına öz təsirini göstərəcək. Çin tələbat artımında əsas faktor olmaqda davam edəcək. Lakin ölkənin hava çirkliliyi ilə mübarizə siyasəti bu böyüməni yavaşladacaq".

# "Petkim" keçən il 3,6 milyon ton məhsul istehsal edib

2017-ci ildə "Petkim PetroKimya Holding A.Ş." 3,6 milyon ton məhsul istehsal edib.

Bu barədə "SOCAR Turkey Enerji A.Ş." (STEAŞ) məlumat yayıb. Bildirilir ki, SOCAR-ın tabeliyində 10 ili uğurla geridə qoyan "Petkim" 2017-ci ildə istehsal gücündən istifadə göstəricisini 97 faizə çatdırıb. Şirkət ötən il 3,6 milyon ton məhsul istehsal edib.

Qeyd edək ki, keçən il "Petkim"in mənfəəti 93 faiz artaraq 1,4 milyard türk lirəsinə çatıb. Şirkətin 2016-cı ildəki xalis mənfəəti isə 725,8 milyon lirə olmuşdu. "Petkim PetroKimya Holding A.Ş." 2017-ci ildə 671 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. Bu göstəricisi ilə "Petkim" Egey bölgəsinin ən böyük ixracatçısı olub. "Petkim" ötən il 69 ölkəyə məhsul ixrac edib. "Petkim" neft-kimya holdinqi bu il yanvarın 26-da isə 500 milyon dollarlıq istiqraz buraxıb və istiqrazlar İrlandiya Fond Birjasında emissiya edilib. İstiqraz satışından əldə ediləcək gəlir şirkətin səhmdarı olduğu "STAR Rafineri" şirkətinin maliyyələşməsinə sərf ediləcək. "Star" neft emalı zavodu həm Türkiyə, həm də "Petkim"i xammalla təmin edəcək. Bu il ərzində istifadəyə veriləcək zavod "Petkim"in xammala olan tələbatının hamısını ödəyəcək.

İstiqrazların emissiyası üçün "Goldman Sachs International", "J.P. Morgan Securities Plc", "Citigroup Global Markets Limited", "Societe Generale" və "VTB Capital Plc" anderrayter vəzifəsində çıxış edib. 500 milyon dollarlıq istiqrazlar üçün son müddət 2023-cü il yanvarın 26-sı müəyyənləşdirilib. Xatırladaq ki, SOCAR 2008-ci ildə "Petkim" şirkətinin səhmlərinin 51 faizini 2,04 milyard ABŞ dollarına alıb. Daha sonra Özəlləşdirmə İdarəsinə məxsus olan 10 faizlik payı alınıb və sonra o satılıb. O dövrdə "Petkim"in dövriyyəsi 2,1 milyard türk lirəsi olub. 2017-ci ilin üçüncü rübündə isə bu göstərici 4,5 milyard türk lirəsi, mənfəəti isə 1 milyard lirə təşkil edib. Yəni, 2016-cı və 2017-ci illər "Petkim" üçün rekordlarla dolu illər olub. Bu illər ərzində "Petkim"in yaxşılaşdırılması üçün 760 milyon dollar investisiya qoyulub. Şirkət üçün ciddi bir sərmayə proqramı var və bu investisiya 2009-2012-ci illər arasında tədricən həyata keçirilib. Hazırda "Petkim" Türkiyənin ən böyük şirkətlərindən biridir. SOCAR 2008-ci ilin mayından etibarən Türkiyədəki fəaliyyətini STEAŞ adı ilə davam etdirir. STEAŞ "Petkim"də təxminən 51 faizlik səhmə sahibdir.

# Dünyanın elmə, elmin isə qadına ehtiyacı var



**Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyət həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşdırılmasında hər zaman müstəsna rol oynamışdır. Azərbaycan qadınının xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılmasında və zənginləşdirilməsində misilsiz xidmətləri olmuşdur. Bu gün toplumun inkişafında alim qadınların rolunun gücləndirilməsi məsələsinə də diqqət ayıran BMT Baş Assambleyası 11 fevralın Elmdə beynəlxalq qadınlar günü kimi qeyd olunması haqqında qətnamə qəbul etmişdir. Bu da öz növbəsində qadınların elmi-tədqiqat işlərinə cəlb olunması baxımından çox əhəmiyyətlidir.**

Bununla əlaqədar olaraq UNEC-də də "UNEC qadınları elm dünyasında: yeni çağırışlar və imkanlar" mövzusunda elmi-praktiki konfrans keçirilmişdir. Biz də "İqtisadiyyat" qəzeti olaraq Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC-in) Elm şöbəsinin müdiri, iqtisad elmləri doktoru Zahid Fərrux Məmmədovla görüşdük və UNEC-in bu sahədə gördüyü işlər və gələcək planları barədə söhbət etdik.

**-Zahid müəllim, 11 fevralın Elmdə beynəlxalq qadınlar günü kimi təsis olunması ilə bağlı UNEC-də də konfrans keçirildi. Zəhmət olmasa, bu barədə məlumat verərdiniz.**

- Bəli, ilk dəfə olaraq məhz UNEC-də bununla əlaqədar tədbir keçirildi. Elmi-tədqiqat baxımından bakalavr, magistr və doktoranturada qadınların sayı getdikcə azalmağa meyil edir. Onların elmi-tədqiqatda payı çox aşağıdır: Nobel mükafatında cəmi 3%, doktoranturada 15%, akademik karyera səviyyəsində isə 5-10%. Bunlar hamısı ciddi narahatlığa yol açır. BMT də dünya ictimaiyyətini buna diqqət etməyə çağırır. Qadınların elmə cəlb edilməsi ciddi məsələdir. İlk dəfə UNEC-də elmdə qadınların rolu ilə əlaqədar konfrans keçirildi. Hörmətli rektorumuz Ədalət Muradov orada qadınların elmi-tədqiat prosesində rastlaşdıqları problemləri qeyd etdi. Bununla əlaqədar olaraq UNEC-də Qadın Araşdırmalar Mərkəzi də təsis edilib. Yaxın dövrlərdə İstanbul Universitetinə göndəriləcək nümayəndə heyəti oradakı Qadın Araşdırmalar Mərkəzi ilə tanış olacaq.

**-Bəs, UNEC-də qadınların elm sahəsində iştirakı ilə əlaqədar vəziyyət necədir?**

-Bu gün UNEC-ə nəzər yetirdikdə, professor-müəllim heyətinin 60%-inin qadınlardan ibarət olduğunu görürük. Eyni zamanda, tələbələrin də əksəriyyəti qadınlardan ibarətdir. Bəs, bu nisbət yüksək olduğu halda, elmi-tədqiqatda vəziyyət necədir? Bizi maraqlandıran kəmiyyət deyil, keyfiyyətdir. Yəni, qadınların sayı çoxdur, bəs, yazdıqları kitab və məqalələrin keyfiyyəti nə səviyyədir? Elm dünyasında tutduqları mövqe necədir? Məqsəd budur ki, qadınları elmə cəlb edək, elmi-tədqiqatlarda qadınların nüfuzu artsın. Böyük şirkətlər bunun üçün külli miqdarda vəsait ayırırlar. Bizim də həmin şirkətlərdən biri ilə yaxın zamanlarda əməkdaşlığımızın baş tutacağı gozlənilir. Gələcəkdə bu sahədə qrant almağı da hədəfləyirik.



**-Qadınların bu sahədə rolunun artırılması ilə bağlı UNEC olaraq nə kimi təklifləriniz var?**

-UNEC-də qadınların elm sahəsində stimullaşdırılması ilə əlaqədar böyük mükafatlar nəzərdə tutulub. Bəzi qadınlar ana olduqdan sonra ruhdan düşür, elmi-tədqiqata maraqları azalır. Biz isə onlara uyğun sistem yaratmağa çalışırıq. Beləliklə, həm elmə, həm də qadınlara dəstək olmağa, onların qarşılaşdıqları problemləri aradan qaldırmağa səy göstəririk.

**- Qadınların elmi-tədqiqat prosesində rastlaşdıqları əsas problemlər nələrdir?**

-Evlilik, maddi sıxıntılar, övladın dünyaya gəlməsi və s. Elmdə qadınların irəli getməsinə mane olan əsas problemlər bunlardır. Hətta Fransada, Amerikada əsas problemlərdən biri olaraq qadına qarşı şiddət də qeyd olunur. Burada, həmçinin hər ölkənin spesifikası da qeyd edilməlidir. Düşünürəm ki, buna görə hər məsələyə individual yanaşmaq lazımdır.

**- Bəs, Azərbaycanda bu sahədə vəziyyət necədir?**

-Azərbaycanda tam tərsi, çox uğurlu bir model mövcuddur. Azərbaycan qadını həm gözəl ana, həm də gözəl tədqiqatçı olub. Əslində, xarici təcrübədə buna çox az rast gəlinir. Bizim keçirdiyimiz konfransda da xaricdən gələn qonaqlar bu sahədə Azərbaycanın uğurlu modelinə çox təəccübləndilər. Azərbaycanda bunun canlı örnəkləri çoxdur. Elə Zərifə xanım Əliyeva - akademik və gözəl ana, yaxud Rəfiqə xanım, Aidə İmanquliyeva, Azərbaycanın birinci xanımı, vitse-prezidenti Mehriban Əliyeva. Bizdə, gördüyümüz kimi, həm çox güclü tədqiqatçı, həm də gözəl ana nümunələri çoxdur.

**-Qadınların tədqiqatçı kimi inkişafına dəstək verilməsi ilə bağlı UNEC olaraq nə kimi planlarınız var?**

- İndiyə kimi UNEC-də də qadınlarla bağlı çoxsaylı araşdırmalar aparılıb. Lakin tədqiqat mərkəzi problemi olub. Biz isə istəyirik ki, bu tədqiqatları vahid mərkəzdə toplayaq. Burada hələ hansı istiqamətdə araşdırmaların aparılmasını müəyyənləşdirməmişik. Xarici ölkələrin təcrübəsindən bəhrələnməklə və tələblər nəzərə alınmaqla bu araşdırmalar aparılacaq. UNEC-də biliklərin kommersiyalaşması prosesi gedir. Bizim də əsas devizimiz belədir ki, dünyanın elmə, elmin isə qadına ehtiyacı var. Yəni, bizdə bu gün qadına böyük ehtiyac vardır. Qadın gələcək övladların, toplumun, cəmiyyətin inkişafının əsasıdır. Çünki qadın yeganə varlıqdır ki, o, dünyaya övlad gətirir. Təbii ki, belə bir yaradıcı qüvvənin fəaliyyəti, iqtisadi aktivliyi bizi maraqlandırır. Bizdə, həmçinin Alim qadınlar şurası da yaradılır. Ayrıca olaraq bizim klublarımız olacaq. UNEC-də Xalidə xanımın rəhbərlik etdiyi Ziyalı alimlər klubu da fəaliyyət göstərir.

**- Qadınlara UNEC-də bu cür qayğı kişi müəllimlərin etirazına səbəb olmur ki?**

-Təbii ki, xeyr. UNEC-də heç bir ayrı-seçkilik yoxdur, ola da bilməz. Eyni zamanda, biz dünyanın mövcud tələblərinə uyğunlaşırıq. Azərbaycan dünyada örnək ölkələrdən biridir. Bizim ölkə, eyni zamanda, multikulturalizm nümunəsidir.

**- Təşəkkürlər, Zahid müəllim, "İqtisadiyyat" qəzeti olaraq UNEC-ə başladığı bu işdə uğurlar diləyirik.**

- Çox sağ olun. Mən fürsətdən istifadə edib, başda "İqtisadiyyat" qəzetinin baş redaktoru Aytən xanım Səmədzadə olmaqla, kollektivin bütün qadın üzvlərini, eyni zamanda, bütün xanımlarımızı 8 Mart – Beynəlxalq Qadınlar bayramı münasibəti ilə təbrik edirəm, bütün xanımlarımıza hər zaman gözəl və təravətli qalmağı diləyirəm.

***Yeri gəlmişkən, istərdim tədqiqatçı və gözəl ana ifadəsinin layiqli nümunəsi olan Aytən xanımın da adını xüsusi qeyd edim. O, ailədə iki övlad böyütməklə bərabər, öz vəzifə borcunun öhdəsindən də bacarıqla gəlir, eləcə də elmi işlərini müvəffəqiyyərlə davam etdirir. Ailədə məhz qadının övladların tərbiyəsinə və maariflənməsinə diqqət yetirməsi onların işıqlı gələcəyinin əvəzolunmaz təminatıdır. Bu gün Aytən xanımın etiraf etdiyi kimi, ailədə övladların hər birinin qazanmış olduğu nailiyyətlərdə atası akademik Ziyad Səmədzadə ilə bərabər, şübhəsiz ki, övladlarının qəlbində elm, bilik çırağı yandırmış anası Firuzə xanım Səmədzadənin də gərgin əməyi, böyük zəhməti danılmazdır. Vaxtı ilə sevib-seçdiyi həkimlik peşəsini ailəsinə, övladlarına qurban verən fədakar ananın ümidlərini bu gün doğrultmuş sevimli bəstəkarımız Aygün Səmədzadə, eləcə də "İqtisadiyyat" qəzetinin baş redaktoru Aytən Səmədzadə həm qayğıkeş ana, həm də ləyaqətli Azərbaycan qadınının gözəl xüsusiyyətlərini özlərində cəmləşdirmişlər.***

**Müsahibəni apardı:**
**Mətanət Hüseynova**

# AtaBank müştərilərinə yeni kredit məhsulu təqdim edir




Artıq qızıl və zinət əşyalarını girov qoyaraq sərfəli şərtlərlə AtaBank-dan "Lombard" kreditini əldə edə bilmək imkanı yaranıb. "Lombard" krediti verilərkən zamin və yaxud iş yerindən arayış tələb olunmur. Bu rəsmi iş yeri olmayan müştərilərin kredit əldə edə bilməsi üçün əla fürsətdir. AtaBank-ın istənilən filialına yalnız şəxsiyyət vəsiqəsini təqdim etməklə müraciət edərək, qısa müddət ərzində qızıl və zinət əşyalarını girov qoyaraq nağd pula çevirmək mümkündür. Kredit ödənildikdən sonra girov tam şəkildə müştəriyə geri qaytarılacaq.

Lombard kreditinin şərtləri:
Maksimal məbləğ: 10 000 AZN
İllik faiz dərəcəsi: 22-26%
Kreditin müddəti: 36 ayadək

Xatırladaq ki, AtaBank-ın digər çox sərfəli Ekspress, Klassik və Avtomobil kredit məhsulları da mövcuddur. Ən əsası isə AtaBank-ın müştəriləri dünyanın istənilən yerində kredit kartlarından istifadə edə bilərlər.

1993-cü ildən fəaliyyət göstərən "AtaBank" ASC 100% yerli kapitala malik, qabaqcıl texnologiyalı universal Azərbaycan bankıdır. Bank Bakıda və ölkənin müxtəlif regionlarında 31 filial və şöbəsi vasitəsilə korporativ və fərdi müştərilərə tam xidmətlər spektrini təqdim edir.

# Bank sektoru fəaliyyətini canlandırmalıdır

Azərbaycan bank sektorunun cəmi aktivləri bu il yanvarın 1-nə 27 milyard 921 milyon manat təşkil edib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının statistikasına görə, bu, ötən il yanvarın 1-i ilə müqayisədə 11,2% azdır.

Bankların aktivlərinin 35,3%-ni və yaxud 9 milyard 861,1 milyon manatını müştərilərə verilmiş xalis kreditlər təşkil edib. Son 1 ildə sektorun kredit portfeli 30,8% kiçilib.

Hesabat dövründə bankların cəmi öhdəlikləri 18% azalaraq 24 milyard 211,8 milyon manata düşüb, lakin depozit portfeli 2,95% artaraq 16 milyard 894,9 milyon manata çatıb. Bunun 7 milyard 542,5 milyon manatı fiziki şəxslərin, 9 milyard 352,4 milyon manatı isə hüquqi şəxslərin depozitləridir. 2017-ci ildə əhalinin əmanətləri 1,5%, şirkətlərin vəsaitləri isə 4,2% artıb.

Ötən il bankların Azərbaycan Mərkəzi Bankı qarşısında öhdəlikləri isə 70,1% azalaraq 507,6 milyon manata düşüb.

Bu müddətdə bank sektorunun cəmi kapitalı isə 94,3% artaraq 3 milyard 709,2 milyon manata çatıb.

**BANKLARIN KREDİTLƏRDƏN GƏLİRLƏRİ AZALIB**

2017-ci ildə Azərbaycan banklarının faiz gəlirləri 1 milyard 775,2 milyon manat (2016-cı illə müqayisədə 11% az), o cümlədən kreditlər üzrə faiz gəlirləri 1 milyard 282,7 milyon manat (24,6% az), faiz xərcləri 824,9 milyon manat (24,9% az), o cümlədən depozitlər üzrə faiz xərcləri 373,4 milyon manat (19,1% az), qeyri-faiz gəlirləri 938,5 milyon manat (2016-cı ildə zərər olub), qeyri-faiz xərcləri 980,6 milyon manat (1,8% az) təşkil edib.

Son nəticədə ötən il bank sektorunun əməliyyat mənfəəti 908,2 milyon manat olub (əvvəlki ilə əməliyyat zərəri olub).

2017-ci ildə banklar aktivlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyatların yaradılması xərclərinə 26,5 milyon manat qənaət ediblər (2016-cı ildə xüsusi ehtiyatlara pul ayırmışdılar), digər mənbələrdən illik müqayisədə 56,4% az - 4,1 milyon manat gəlir əldə ediblər, 29,9% çox - 55,2 milyon manat mənfəət vergisi ödəyiblər.

Bununla da, sektorun illik xalis mənfəəti 883,6 milyon manat təşkil edib. Bunun 290,9 milyon manatı dekabrda əldə edilib. Xatırladaq ki, banklar 2016-cı ili 1 milyard 667,6 milyon manat xalis zərərlə başa vurmuşdu.

Bu il yanvarın 1-nə olan vəziyyətə görə, Azərbaycanda bank filiallarının sayı 509 olub. Bu, ötən il dekabrın 1-i ilə müqayisədə 38 vahid azdır.

"Ötən ay bank filiallarının sayının kəskin azalması əsasən "Dəmir Bank"ın lisenziyasının geri çağırılması ilə bağlı olub", - deyə Palatadan bildirilib.

Bu il yanvarın 1-nə olan vəziyyətə görə, Azərbaycanda bankomatların sayı 2 431 olub.

"Ötən ay bankomatların sayının kəskin azalması əsasən "Dəmir Bank"ın lisenziyasının geri çağırılması ilə bağlı olub".

Bu il yanvarın 1-nə olan vəziyyətə görə, Azərbaycanın bank sektorunun işçi heyətinin sayı 16 171 nəfər olub. Bu, ötən il dekabrın 1-i ilə müqayisədə təxminən 2,75% və yaxud 458 nəfər azdır.

Ötən ilin əvvəlinə nisbətən sektorun işçi heyətinin sayı 4,6% və yaxud 776 nəfər azalıb.

"Lisenziyası geri çağırılmış "Dəmir Bank" nəzərə alınmadan ötən ay bankların işçilərinin sayı 63 nəfər artıb", - deyə Palatadan bildirilib.

"Azəraqrartikinti" SC

Əziz və sevimli xanımlar,
Sizi qarşıdan gələn
8 Mart bayramı
münasibəti ilə təbrik
edir, uzun ömür,
cansağlığı, həyatınızda
uğurlar arzu edirik!









KİVDF
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# YOL İNFRASTRUKTURUNUN YÜKSƏK STANDARTLAR SƏVİYYƏSİNDƏ QURULMASI BÖLGƏLƏRİN İNKİŞAFINA GENİŞ İMKANLAR AÇIR

Hər bir ölkənin inkişaf səviyyəsini şərtləndirən mühüm amillər sırasında yol infrastrukturunun vəziyyəti ön mövqedə dayanır. Yol dövlətin iqtisadi inkişaf və sosial tərəqqi səviyyəsini müəyyən etməklə yanaşı, həm də mədəniyyətdir. Yol şəbəkəsi zəif olan ölkənin, digər göstəriciləri diqqəti cəlb edə bilməz. Yol burula-burula keçib getdiyi bütün ərazilərə, yaşayış məntəqələrinə , şəhər və qəsəbələrə bir coşqu və qələbəlik gətirir. Abad, rahat və müasir yol təsərrüfatı olmadan digər iqtisadi və sosial infrastruktur tədbirlərini həyata keçirmək heç bir fayda verə bilməz. Keçən əsrin 90-cı illərini yada salın. Yollarımız nə vəziyyətə düşmüşdü. Bölgələrə gediş-gəliş müşkülə çevrilmişdi, qısa məsafəni qət etməyə saatlarla vaxt sərf etmək lazım gəlirdi. Ulu öndər Heydər Əliyev bütün bunları görürdü və hesab edirdi ki, yol infrastrukturunu bərpa etmədən Azərbaycanın sürətli inkişafını təmin etmək mümkün deyildir. Cənab Prezident İlham Əliyev ulu öndərin ideya və baxışlarından güc alaraq bütün sahələrdə, o cümlədən avtomobil yolları quruculuğu sahəsində ciddi tədbirlər görməyə başladı. Artıq 14 ildir ki, bu möhtəşəm quruculuq və yenidənqurma işləri davam etdirilir. Bu illər ərzində Azərbaycanın yol şəbəkəsi inanılmaz dərəcədə dəyişmiş, müasirləşmişdir. Lakin yol quruculuğu elə bir sahədir ki, burada dayanmaq olmaz. Ölkə dinamik inkişaf edir, yeni tələb və çağırışlar fonunda yol infrastrukturunun modernləşdirilməsinə də zərurət yaranır.

2004-cü ildən başlayaraq uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları ilə paralel olaraq, ölkəmizdə avtomobil yolları şəbəkəsinin yenilənməsi prosesi gedir. Bu illər ərzində Azərbaycanın yol infrastrukturunun yenilənməsində, onun beynəlxalq standartlar səviyyəsinə yüksəldilməsində və tranzit imkanlarının artırılmasında ciddi irəliləyişlər əldə olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci ilin dekabr ayında imzaladığı fərmanla Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi yaradılmış, onun nizamnaməsi və strukturu təsdiq edilmişdir. Belə bir mükəmməl qurumun yaradılması ölkəmizdə yol quruculuğuna verilən böyük önəmdən irəli gəlir. 2017-ci ildə dövlət başçısının imzaladığı sərəncamlara uyğun olaraq, respublikamızın 34 rayonunda, 14 respublika əhəmiyyətli, 42 kəndlərarası avtomobil yolları layihələri uğurla yekunlaşdırılıb. Bakı şəhərinin 10 qəsəbələrarası avtomobil yolu layihəsi, bir körpü və yeraltı keçidin tikintisi başa çatdırılıb. Bu mühüm layihələrin gerçəkləşməsi 2,1 milyon nəfər əhalinin yaşadığı 654 yaşayış məntəqəsini əhatə edir. Artıq 1341 kilometr uzunluğunda avtomobil yolları əhalinin ixtiyarına verilib. Regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektləri, kənd təsərrüfatı ilə məşğul olan insanlar meyvə-tərəvəzi, pambığı, baramanı, tütünü, fındığı, çəltiyi, çay yarpağını, ət və süd məhsullarını və onlarla digər kənd təsərrüfatı məhsullarını əziyyət çəkmədən, operativ şəkildə istədikləri ünvana çatdıra bilirlər.

Yol nəqliyyatı quruculuğundan danışarkən, qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev təkcə 2017-ci il ərzində tikintisi başa çatmış layihələr də daxil olmaqla 36 dəfə avtomobil yolu və yol qovşağının açılışını etmişdir.

Yuxarıda da göstərildiyi kimi, keçən il 1341 kilometr avtomobil yollarının tikintisi və yenidən qurulması həyata keçirilmişdir ki, bu da 2016-cı illə müqayisədə 416 kilometr çoxdur. Son iki ildə yol təsərrüfatı ilə bağlı qəbul edilmiş dövlət proqramları çərçivəsində aparılan işlər mühüm əhəmiyyət kəsb edir. Həmin tədbirlər nəticəsində bu gün ölkəmizdə birinci texniki dərəcəli avtomobil yolları 785,9 kilometr təşkil edir ki, bu rəqəm 2015-ci ildə 481 kilometr olmuşdur. Son bir il ərzində ölkədə ümumi istifadədə olan avtomobil yollarında 14 yeni avtomobil körpüsü tikilmiş, 8 körpü təmir edilmişdir. Avtomobil yollarında 13 piyada keçidi tikilərək istismara verilmişdir. Bunlardan 10-u Bakı-Şamaxı-Yevlax avtomobil yolunda, 2-si Bakı-Quba-Rusiya Federasiyası dövlət sərhəddi avtomobil yolunda, biri isə Zaqatala şəhərində tikilmişdir.

2017-ci ilin ən əlamətdar və yaddaqalan hadisəsi isə iyun ayının



14-də Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə gedən, uzunluğu 8 kilometr olan yolun açılışı olmuşdur. Bu yolun istifadəyə verilməsini hər bir ölkə vətəndaşı Qarabağa gedən böyük qayıdış yolunun başlanğıcı kimi fərəh hissi ilə qarşılamışdır.

Keçən il Bakı şəhərində 736,8 min əhalinin yaşadığı 28 yaşayış məntəqəsini birləşdirən, uzunluğu 96 kilometr olan 10 qəsəbələrarası avtomobil yolunun tikintisi və yenidən qurulması uğurla başa çatdırılmışdır.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi daxili investisiya hesabına həyata keçirilən layihələrin miqyasını və həcmini genişləndirmişdir. Hacıqabul-Bəhramtəpə-Mincivan avtomobil yolunun 64 kilometrlik hissəsinin yenidən qurulması, Ağ şəhər layihəsinin davamı, Bakı şəhərində bir sıra yol-nəqliyyat infrastrukturunun yenidən qurulması, Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhəddi avtomobil yolunun Yuxarı Tala kəndi ərazisindən keçən hissəsinin yenidən qurulması, Zaqatala şəhəri ərazisində yeraltı keçidin tikintisinin başa çatdırılması, Biləsuvar rayonu ərazisində 18 min nəfər cəbrayıllı məcburi köçkünün məskunlaşdığı 11 yaşayış məntəqəsini birləşdirən qəsəbələrarası avtomobil yolunun əsaslı təmiri, Cəlilabad-Yardımlı avtomobil yolunun tikintisinin davam etdirilməsi, Balakən rayonunun Balakən-Qazbinə-İtitala avtomobil yolunun, Dəmirçi-Lahıc avtomobil yolunun tikintisi, Qoroğan-Qax-Zaqatala avtomobil yolunun Qax-Zaqatala hissəsinin bərpası, Yevlax-Zaqatala-Gürcüstan dövlət sərhəddi avtomobil yolunun yenidən qurulması, Zaqatala-Balakən-Mazımçay hissəsinin əsaslı təmiri kimi layihələr bu qəbildəndir.

Yol infrastrukturu yenilənərkən nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyi ilə bağlı kompleks tədbirlər həyata keçirilir. Ötən il respublika üzrə avtomobil yollarında 3355 ədəd yol nişanı, 1085 ədəd məlumat lövhəsi, 10948 ədəd siqnal dirəyi, 1140 ədəd siqnal bayrağı, 14870 perimetr əyrixətli tirlər quraşdırılmış və ya bərpa edilmiş, 714,2 min km həcmdə yolların boya ilə xətlənməsi işləri görülmüşdür. 10 yanvar 2018-ci il tarixində Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında cənab Prezident İlham Əliyev xüsusi olaraq vurğulamışdır ki, iqtisadiyyatın bütün sahələri ilə yanaşı, respublikanın avtomobil yollarında yerinə yetirilən işlərin həcmi böyükdür, 500 yaşayış məntəqəsini əhatə edən 1300 kilometr uzunluğunda avtomobil yolunun çəkilməsi buna əyani sübutdur.

2018-ci ildə ölkəmizdə yol quruculuğu sahəsində ciddi işlərin görülməsi nəzərdə tutulur. Cari ildə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2000 kilometr uzunluğunda yolların çəkilişi planlaşdırılır. Bakı şəhərində uzunluğu 106,4 kilometr olan 11 layihənin, uzunluğu 1274 kilometr olan 52 kəndarası layihənin, həmçinin respublika əhəmiyyətli avtomobil yollarının və xarici kredit hesabına maliyyələşdirilən digər layihələrin yerinə yetirilməsi nəzərdə tutulur.

Bununla yanaşı, il ərzində Olimpiya stadionunun ərazisində inşa olunan tunelin, müasir dizaynda 5 piyada keçidinin tikintisi, Ağ şəhər layihəsi, Ziya Bünyadzadə prospektini Balaxanı-Binəqədi şosesi ilə birləşdirən yeni avtomobil yolunun tikintisi, Şamaxı-Padar yolunun davamı olaraq Padar-Sabirabad yolunun tikintisi, Rusiya Federasiyası ilə sərhəddə Samur çayı üzərində yeni körpünün tikintisi, Sumqayıt şəhərində iki prospekt və iki küçənin yenidən qurulması və s. işlərin görülməsi nəzərdə tutulur. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən 2018-ci ildə ən azı 2171 kilometr avtomobil yollarının tikintisi, yenidən qurulması və təmiri həyata keçiriləcəkdir. Bundan başqa, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhəddi yeni avtomobil yolunun M.Z.Tağıyev qəsəbəsindən başlayaraq tikintisi, həmçinin uzunluğu 243 kilometr təşkil edən Ələt-Astara-İran İslam Respublikası dövlət sərhəddi avtomobil yolunun tikintisi cari ilin sonunadək tam başa çatdırılacaqdır.

2017-ci ildə bölgələrin iqtisadiyyatında, ilk növbədə aqrar bölmənin dirçəlişində ciddi irəliləyişlər baş vermiş, yeni emal müəssisələri, müasir tipli aqroparklar, sənaye zonaları yaradılmış, ixrac yönlü məhsulların, o cümlədən pambıqçılığın, tütünçülüyün, fındıqçılığın, baramaçılığın inkişafında keyfiyyətcə yeni mərhələ başlanmışdır. Keçən il pambıq istehsalı bir neçə dəfə artırılaraq 207 min tonu ötüb keçmişdir. Bütün bu nailiyyətlərin qazanılmasında yol infrastrukturunun təkmilləşdirilməsi, avtomobil yolları şəbəkəsinin genişləndirilməsi önəmli rol oynamışdır.

Bu ilin fevral ayının 27-də cənab Prezident İlham Əliyev Mingəçevir şəhərinə səfəri zamanı qeyd etmişdir ki, Bəhramtəpə-Mingəçevir avtomobil yolunun açılışı bu yolun üstündə yerləşən Bərdə, Yevlax, Ağcabədi, Goranboy rayonlarının, eləcə də bütün bölgənin iqtisadi inkişafına böyük təkan verəcəkdir. Həm də əhalinin rahat gediş-gəlişini təmin ediləcəkdir.

Azərbaycan bölgənin cəlbedici turizm mərkəzlərindən birinə çevrilir. Ölkəmizə təşrif buyuran turistlər, qonaqlar ən çox bölgələrimizə üz tuturlar. Hazırda turizmin yeni növləri – kənd turizmi, dağ turizmi, ekoturizm, aqroturizm intişar tapıb formalaşır. Bütün magistral və əsas yollarımız yüksək standartlar səviyyəsində qurulub. Sonrakı mərhələdə kənd yollarının yenidən qurulmasına ciddi fikir veriləcək. Yaxın bir neçə il ərzində bu sahədə olan problemlər öz həllini tapacaq. Azərbaycan Qərblə Şərqi, Avropa ilə Asiyanı birləşdirən möhtəşəm nəqliyyat, kommunikasiya və logistika mərkəzinə çevriləcək, bölgədə yaşayan xalqlara, millətlərə sülh, barış və firavanlıq bəxş edəcəkdir.

**Zülfü İLYASOV,**
**bölgə müxbiri**

# Azercell-dən abunəçilərinə 100 dəqiqə hədiyyə

Ölkənin lider mobil operatoru Azercell Telekom MMC yeni kampaniyaları ilə abunəçilərini sevindirməyə davam edir. Martın 1-dan etibarən Azercell-in Eksklüziv mağazalarında istənilən aylıq internet paketlərə, tarif paketlərə (GencOL, Hədsiz, Hedsiz Zəng, Hədsiz İnternet, Kombo, Biznes 200) qoşulan və yaxud istənilən telefon modeli və ya aksessuar əldə edən abunəçilərə şəbəkədaxili 100 dəqiqə danışıq həcmi hədiyyə veriləcək.




Qeyd edək ki, Azercell-in Eksklüziv mağazaları abunəçilərin ixtiyarına verilib. Ən müasir avadanlıqla təchiz olunaraq yeni Nordik konsepsiyasına uyğunlaşan bu mağazalarda abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilirlər. Eyni zamanda, abunəçilər mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuarları, cihazları, mobil telefonları kredit və nağd şəkildə əldə etmək imkanı qazanırlar. Azercell Telekom bayramlar ərəfəsində abunəçilərini bir-birindən sərfəli kampaniyalarla sevindirməkdə davam edəcək.

# Bakcell şirkəti ADA Universitetinin təşkil etdiyi 6-cı Karyera Sərgisində iştirak edib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell ADA Universitetinin təşkil etdiyi 6-cı Karyera Sərgisində iştirak edib.

Hər il ənənəvi olaraq keçirilən bu tədbirin məqsədi Azərbaycanın gənc istedadlı tələbələrini və müxtəlif sahələrdə fəaliyyət göstərən müəssisələrin nümayəndələrini bir araya gətirərək, onlar arasında əlaqə yaratmaq və gənc kadrları potensial işəgötürənlərə daha yaxın etməkdir. Sərgidə ölkənin ən nüfuzlu şirkət və müəssisələri təmsil olunub və onlar ADA Universitetinin tələbə və məzunlarını müxtəlif karyera və təcrübə imkanları ilə tanış ediblər.



Ölkənin qeyri-neft sektorunun ən iri investorlarından olan Bakcell şirkəti Azərbaycan iqtisadiyyatının ən prioritet istiqamətləri sırasında gənclərin məşğulluğunun inkişaf etdirilməsinə böyük töhfə verməkdədir. ADA-nın təşkil etdiyi 6-cı Karyera Sərgisində universitetin tələbə və məzunlarına Bakcell şirkətinin satış və marketinq departamentlərində mövcud olan vakansiya və təcrübə imkanları barədə məlumat verilib. Həmçinin, gənclər Bakcell şirkətinin öz müştərilərinə və xidmətlərinə innovativ yanaşma üsulları barədə geniş məlumatla tanış olublar. Karyera sərgisindəki Bakcell stendi iştirakçılar tərəfindən böyük maraqla qarşılanıb.

Bakcell şirkətinin fəaliyyətinin əsas məqsədlərindən biri də yerli gənc istedadlara təhsil və karyera qurmaqda dəstək göstərmək və beləliklə də Azərbaycan gənclərinin parlaq gələcəyinə töhfə verməkdir.

# "Uşaqların sağlamlığı naminə" sosial layihəyə başlanılıb

Mobil Qan Klinikası uşaqları pulsuz müayinə edəcək.

2018-ci il fevralın 27-də Azercell Telekom MMC və Respublika Müalicəvi Diaqnostika Mərkəzi (RMDM) tərəfindən uşaqların sağlamlığının qorunması istiqamətində birgə sosial layihəyə start verilib. Layihə çərçivəsində Hepatit B, C, C-reaktiv zülal, QİÇS kimi xəstəliklərin təyin edilməsi məqsədilə Azercell-in Mobil Klinikasında RMDM-in peşəkar tibb heyəti tərəfindən "SOS Uşaq Kəndləri – Azərbaycan" Assosiasiyasında məskunlaşan uşaqlardan qan analizləri götürülüb və müayinələrin cavabı Azercell Telekom MMC-nin şəbəkəsi ilə himayəçi valideynlərin mobil telefonlarına, eləcə də müəssisənin direktoruna təqdim edilib. Məlumatlar Azercell Telekom MMC tərəfindən avtomatlaşdırılmış texnologiyada tam məxfi olaraq arxivləşdirilib. Layihənin gələcəkdə daha geniş sosial qruplarda reallaşdırılması planlaşdırılır.

Pilot xarakter daşıyan layihənin həyata keçirilməsində məqsəd uşaqların sağlamlığı sahəsində keyfiyyətli tibbi xidmət göstərmək və gələcəkdə yarana biləcək xəstəliklərin erkən aşkarlanmasını təmin etməklə uşaqları qorumaqdır.



# Azercell Qubada ikinci Eksklüziv mağazasını abunəçilərin ixtiyarına verdi

Azərbaycanın lider mobil operatoru Azercell Telekom yeni konsepsiyaya uyğun mağazalarının sayını paytaxt və regionlar boyu artırmaqda davam edir. Belə ki, Azercell 2 mart tarixində Qubada yeni konsepsiyaya uyğun artıq ikinci Eksklüziv mağazasının açılışını edib. Quba şəhəri, Qələbə küç. 12 ünvanında yerləşən bu mağaza ən müasir avadanlıqla təchiz olunaraq yeni Nordic konsepsiyasına uyğun təşkil edilib. Mağazanın xüsusi özəlliyi ofisdə açıq sahələrin mövcudluğu, servislərin və seçim imkanlarının rahatlığıdır. Belə ki, burada abunəçilər istədiyi məhsulu tədqiq və müqayisə edə, sınaqdan keçirə bilərlər.

Düzgün seçim etməkdə, xidmətləri qoşmaqda və digər məsələlərdə müştərilərə peşəkar satıcılar dəstək olur. Bu mağazada da "izahlı qaimə" və "addan-ada" əməliyyatları istisna olmaqla, digər müştəri xidmətləri mərkəzlərində təqdim olunan bütün əməliyyatlar icra olunur. Burada abunəçilər mobil texnologiyaları dəstəkləyən müxtəlif aksessuarlar, cihazlar əldə edə, eyni zamanda, mobil telefonları kredit və nağd şəkildə ala bilərlər.

Qeyd edək ki, Qubada fəaliyyət göstərəcək bu mağaza da həftənin bütün günləri fasiləsiz olaraq səhər saat 9:00-dan axşam 19:00-a qədər abunəçilərin ixtiyarına verilir.




# Novruz çillələri və çərşənbələri

Günəşin öz isti şüaları ilə torpağı oyatdığı, buzların əriyərək çayların suyuna qarışdığı, kol dibindən bənövşələrin baş qaldırdığı, quşların səsinin ətrafa yayıldığı bir zamanda təbiətdəki bahar əhval-ruhiyyəsini, bahar nəfəsini duymamaq qeyri-mümkündür. Bu canlılıq və oyanış yaddaşlardan süzülüb bu günümüzə çatmış Novruzun gəlişindən xəbər verir. Günəş təqvim ilinin, adətən, mart ayının 20-22-dən başlanmasının və Novruz bayramının bu tarixə düşməsinin də öz elmi əsası vardır. Bu, dəqiq astronomik hadisə olan Günəşin dünyanın yarımkürəsindən Şimal yarımkürəsinə keçməsinə, gecə-gündüzün bərabərləşməsinə və yerin Şimal yarımkürəsində astronomik baharın girməsinə uyğun gəlir.

Novruz bayramına gedən yol öz başlanğıcını qışın çillələrindən götürür. Dekabr ayının 22-də qışın gəlməsi ilə başlayan 40 günlük Böyük çillədə baharın simvolu sayılan səməni göyərtmək və ondan halva bişirməklə yazın tez gəlməsi, bununla torpağın oyanması, əkilmiş məhsulun cücərib böyüməsi arzusu ifadə olunmuşdur.

Fevral ayının əvvəlindən başlayaraq iyirmi gün davam edən Kiçik çillə «qışın oğlan çağı» sayılır. Bu çillənin «Xıdır nəbi» adlanan birinci ongünlüyü isə, ümumiyyətlə, ilin ən sərt, çovğunlu, dondurucu dövrü sayılır və buna görə ona «yalquzaq zamanı» da deyilir. «Xıdır Nəbi» mərasimi Kiçik çillənin onuncu günü icra olunur. Buğda qovrulub əl daşında üyüdülür. Qaynadılmış yumurtalar daha çox günəşin və yazın simvolu sayılan sarı, qırmızı, yaşıl rənglərə boyanır. Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə, yəni Novruz bayramına qədər olan çağ «Alaçalpo», «Ağlargülər», «Boz ay» və s. adlanır. Boz ay hər biri yeddi gündən ibarət cəmlələr adlanan dörd həftəyə - çillәbeçəyə bölünür. Etiqada görə, bu həftələrin dördündə, eləcə də Kiçik çillənin üç çərşənbəsində təbiətdə və cəmiyyətdə canlanma, oyanma, dirilmə prosesi gedir. Dediyimiz yeddi çərşənbədən üçü «oğru çərşənbə», «oğru buğ», «oğru üskü», dördü isə «doğru çərşənbə», «doğru buğ», «doğru üskü», «cəmlələr» adlanır. Novruz bayramına qədər, adətən, dörd çərşənbə qeyd edilir:

- su çərşənbəsi;
 od çərşənbəsi;
- yel çərşənbəsi;
- torpaq çərşənbəsi.



**Su çərşənbəsi**

Məlumdur ki, istər qədim türk, istərsə də islami yaradılış haqqında görüşlərdə su ən dominant komponentdir. Hətta yaradılışdan əvvəl bütün varlığın yalnız sudan ibarət olması haqqında qədim türk mifi də mövcuddur. Ümumiyyətlə, dünyanın əksər xalqlarında su ilə bağlı miflərdə suyun od, torpaq, hava ilə bərabər yaradılışın əsas komponentlərindən olması daha qabarıqdır. Əslində, Novruz bayramının ilk çərşənbəsinin su adı ilə qeyd olunması insanın yaradılış prosesinin ilkin mərhələsinin qeyd olunmasıdır. Su çərşənbəsində xalq arasında bu gün də yaşadılan mərasimlər bu fikri təsdiq etməkdədir.

**Od çərşənbəsi**

Novruz bayramı ərəfəsində keçirilən ikinci çərşənbə od çərşənbəsidir. Lakin bu, heç də atəşpərəstliklə bağlı deyil. Qədim türk mifologiyasının özündə odla bağlı müxtəlif motivlər mövcud olmuşdur və Novruzdakı odla bağlı rituallar bu görüşlərlə bağlıdır. Əski türk inamına görə, odu insanlar ilk olaraq ağac koğuşunun dibindən əldə etmişdilər. Atəş türk xalqlarında müqəddəsliyi qoruyan varlıqlardan biridir. Əski düşüncəyə görə, atəş ocağı, ocaq da evi, soyun davamını təmsil edir. Atəş tanrısı atəşi və ocağı qoruyur. Atəşə su tökülməz, ona pis söz deyilməz. Həmçinin, od çərşənbəsində od-ocaq Günəşi təmsil edir.

# Bakıda 1-ci Beynəlxalq Françayzinq Forumu

Martın 2-də Bakıda 1-ci Azərbaycan Beynəlxalq Françayzinq Forumu öz işinə başlayıb.

Azərbaycanda ilk dəfə olaraq keçirilən "Caspian Franchise Forum 2018" "Caspian Event Organizers" ("CEO") şirkətinin təqvimində yeni tədbirdir və bu forumun keçirilməsində məqsəd kiçik və orta biznes müəssisələrinə yeni fəaliyyət sahələrinin genişləndirilməsi və təşkilində köməklik göstərmək, eləcə də Azərbaycanda françayzinqin inkişaf imkanlarını müzakirə etməkdir.

"Caspian Franchise Forum 2018" bir sıra xarici brendləri, eləcə də franşiza əldə etmək istəyən və işgüzar tərəfdaş axtarışında olan yerli sahibkarları, investisiya şirkətlərinin rəhbərlərini bir araya gətirib.

Forum iştirakçıları françayzinq biznesinin yaradılması və ya inkişafı üçün konsepsiya və təkliflərini nümayiş etdirməklə yanaşı, "fast food" ("Noon-o-Kabab" şirkəti, BƏƏ), uşaqlar üçün mal və xidmətlər ("Gulliver", "Button Blue" şirkətləri, Rusiya), IT texnologiyaları ("REISSWOLF" şirkəti, Almaniya), geyim istehsalı ("Kanzler" şirkəti, Almaniya) və restoran biznesi ("KillFish" şirkəti, Rusiya) kimi işgüzar istiqamətlər üzrə öz brend franşizalarını təqdim ediblər.

Forum Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən dəstəklənmişdir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə daxili işlər naziri, general-polkovnik Ramil Usubova anası
**RƏNA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahova
**MAHİR PƏNAHOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500